KREDO

№ 34 (1290) 25 noyabr 2025-ci il

# "ÖMRÜM, MƏNİ BAĞIŞLA"



Tanınmış şair-publisist Rafiq Musanın 75 illik yubileyi ərəfəsində "Ömrüm, məni bağışla, yaxud həyatımın monoloqu" bədii-sənədli video verilişin təqdimatı "Sakit məkan" adlı mədəniyyət ocağında keçirildi. Videolentin hazırlanmasında əsas ssenari materialı şairin özünün qələmə aldığı eyniadlı poemasıdır. Əsərin yüksək bədii məziyyəti dinləyici və tamaşaçı cazibəsini təmin edir.

Təqdimatda professor İslam Qəribli, şair-publisist Əli Rza Xələfli istefada olan polis zabiti İsmayıl Həkimli, şairin dostu Hüseyn Babayev, Əməkdar müəllim Saməddin İbrahimov, dilçi-alim, publisist Fəxrəddin Əliyev, Vüqar Əliyev, Arif Əsədov şairin iştirakı ilə videoverilişi diqqətlə izləmiş və təəssüratlarını bölüşmüşlər.

Şairin 75 illik yubileyi ərəfəsində dəyərli videoverilişin hazırlanması onun zəngin yaradıcılıq aləminə və həyat yoluna bir töhfə oldu.

*Ceyhun ZALLI*